*"Qarabağ: Zəfər yolunda" kitabından səhifələr*

# BİR CÜT OĞLANIN GÜVƏNC YERİ

## *(İsmayılzadə Vaqif Vüqar oğlu - 06.11.1996 - 21.10.2020)*



Ədalətli və ya ədalətsiz hesab edilməsindən asılı olmayaraq, müharibələr bütün hallarda təkcə insanların ürəklərinə deyil, torpağın, bütövlükdə isə ana təbiətin sinəsində dərin şırımlar açır. Tarixi keçmişə nəzər salsaq görərik ki, indiyə qədər mövcud olan bütün müharibələr dağıntılar, insan ölümləri və faciələrlə sona çatıb. Təəssüflər olsun ki, müharibə itkisiz olmur və azadlıq qurbanlar tələb edir. Vətən uğrunda gedən bu dəfəki qeyrət savaşında da xalqımızın mərd oğulları ölkəmizin ərazi bütövlüyü və torpaqlarımızın düşmən tapdağından xilas olması naminə canlarından keçdilər. Məhz onların qanları bahasına Azərbaycanın əzəli torpaqları geri qaytarıldı.

Ötən il sentyabrın 27-dən başlayaraq şanlı Azərbaycan Ordusunun həyata keçirdiyi əks hücum əməliyyatları zamanı doğma torpaq-Vətən uğrunda canını fəda edərək şəhidlik zirvəsinə yüksələnlər, həm də öz adlarını xalqımızın tarixi yaddaşına həkk etdilər. Ərən oğullarımız Vətən, dövlət və xalq qarşısında qəhrəmanlıq nümunəsi nümayiş etdirməklə, milyonlarla insanın sevgisini, rəğbətini qazandılar.

İkinci Qarabağ Savaşında sinəsini əzəli torpaqlarımıza sipər edərək, şəhidliyin İmam Hüseyn zirvəsinə yüksələnlərdən biri də, cavan eloğlumuz İsmayılzadə Vaqif Vüqar oğlu oldu. Vaqif əslən Horovlu kəndindən olsa da, rayonumuzun dağətəyi zonasında yüz illərdən bəri mövcud olan bu yaşayış məntəqəsi barədə təsəvvürü yox idi. Yalnız valideyinlərinin və 27 il öncə həmin yarlı-yaraşıqlı, bağlı-bağatlı kəndi tərk etməyə məcbur olan həmkəndlilərinin sözlərindən bilirdi ki, ata yurdu Horovlunun uzaq tarixi keçmişi, tanınmış el ağsaqqalları, bilikli-savadlı ziyalıları, ən başlıcası isə halal zəhmətiylə ailə-uşaq saxlamağı ən savab iş hesab edən halal sakinləri yetərincədir...

Deyirlər Vətən qürbət deyil, ancaq qərib eldə-obada yaşayıb, bağlı yolların arxasından doğma yurd yerlərinə boylanmağın özü də dözülməzdir. Vaqif 16 noyabr 1996-cı ildə Beyləqan rayonunun Birinci Şahsevən kəndində dünyaya göz açandan xeyli sonra, yeniyetməlik çağlarında dərk elədi ki, insanın illər boyu yaşadığı doğma el-obasından, evindən-eşiyindən perik düşməsi çəkiləsi dərd deyil.

Məktəbli yaşı çatanda Vaqif Beyləqan rayonunun Araz qəsəbəsindəki A.-Miriyev adına tam orta məktəbə üz tutdu. Savadlı pedaqoji işçiləri ilə tanınan təhsil ocağında o, təkcə yaxşı oxumaqla kifayətlənmədi, eyni zamanda idmanla da məşğul oldu, çeşidli tədbirlərə qatılaraq həmişə ön sıralarda getməyə layiq olduğunu nümayiş etdirdi. Məktəb rəhbərliyi fəal - bacarıqlı və çalışqan olduğunu nəzərə alıb onu fəxri fərmanla təltif etdi. 2013-2014-cü tədris ilinin məzunu kimi Vaqif on bir il oxuduğu tədris ocağından ayrılanda, artıq vətənpərvər, çevik və bacarıqlı bir gənc kimi tanınırdı.

Əsgərlik yaşı çatanda həvəslə ordu sıralarına qatıldı, hərbi təlimlərdə komandirlərindən aldığı tapşırıqları qeydşərtsiz yerinə yetirdi. Sadəliyi, mehribanlığı və cəsarəti ilə hamının diqqətini özünə çəkməyi bacardı. Əsgəri xidmətinin ilk günlərindən anladı ki, düşmən tapdağı altında qalan torpağı azad etmək üçün hazırlıqlı olmaq ən vacib şərtlərdən biri, bəlkə də elə birincisidir. Ona görə də müasir silah növləri barədə biliyini artırmağa, tabeliyində olduğu zabitlərin dedikərini yadda saxlamağa çalışdı. Nümunəvi bir əsgər olduğundan fəxri fərmana layiq görüldü. Milli Ordumuzun əsgəri kimi həmişə qürur hissi keçirən bu cəsur oğlan xidmət müddəti ərzində hamının rəğbətini qazanmağa müvəffəq oldu.

2017-ci ildə hərbi xidmət müddəti başa çatandan sonra Vaqif məskunlaşdıqları yaşayış məntəqəsinə qayıtdı. Valideynlərinə artıq yardımçı olmağın vacibliyini nəzərə alaraq, gücü-səriştəsi çatdığı işlərin qulpundan yapışıb, mənsub olduğu ailənin güzəranının yaxşılaşması naminə necə deyərlər, özünü odaközə vuraraq, daş altdan çıxan halal ruzunun necə dadlı olduğuna dönə-dönə inandı. Valideynlərinin xeyir-duaları ilə 2017-ci ildə çoxdan bəri gözaltı elədiyi bir qızla ailə qurdu. Ulu Tanrı şirin payını gecikdirmədi, bir-birinin ardınca doğulan iki oğlan uşağının atası oldu...

Xeyli müddətdən bəri elə bil gözəgörünməz bir qüvvə ona yenidən hərbi xidmətdə olmağı təlqin edirdi. İstəyirdi ki, Vətənin dar günündə kənarda qalanlardan olmasın, cəbhədə hansısa bir işin öhdəsindən gəlsin. Belə düşüncələrə daldığı anların birində ustad şair Məmməd Arazın dillər əzbəri olan bir beyti yadına düşdü:

"Qoy, sənə ordumuza həsr olunan bir şeir deyim, təzəlikcə oxumuşam, müəllifi tanınmış şair, tarix üzrə fəlsəfə doktoru, ehtiyatda olan polis polkovniki Əjdər Yunus Rzadır. Bir dəfə evimizdə rayonumuzun ziyalılarından söhbət düşəndə atam onun da adını çəkib dedi ki: "Yaxşı tanıyıram, Əjdər müəllimi, əslən bizim rayonun Dağ Xələfli kəndindəndir":

*"Eşitsin ana torpaq, qoy bilsin Vətən,*
*Müsallah əsgərəm mən də, bu gündən."*
*Keçirib düşməni bir-bir süngüdən,*
*Qələbə çalmamış dönmərəm geri,*
*Qoymaram tapdaqda bir qarış yeri.*

*Dediyim an gəlib, yetişib zaman,*
*Artır ümidimiz, gül açır güman.*
*Bir daha düşmənə verməzik aman,*
*O vaxtkı döyüşdən olmayacaqdır,*
*Yurdumda bir dığa qalmayacaqdır.*

*Otuz il gözlədik, otuz il dözdük,*
*Çıxış yollarını aradıq, gəzdik...*
*Düşmən deməsin ki, yorulub bezdik,*
*Təzədən meydana giririk indi*
*Kimin kimliyini görürük indi.*

*Bizi tək gördülər, təkləndik onda,*
*Boğuldu elimiz, obamız qanda.*
*Türküm ki, özünü yetirdi sonda,*
*Şuşadan yad bayraq salınacaqdır.*
*Xocalının qisası alınacaqdır.*

*Oğullar yazılır döyüşmək üçün,*
*Bir şəhid yerinə mini var bu gün.*
*Tezliklə bu dünya görəcək gücün,*
*Düşmən cəbhəsini yaran ordumun,*
*Yağının boynunu qıran ordumun.*

Şeir elə bil hər ikisini sehirləmişdi. Vaqifin polis dostu şeirin təsirindən vəcdə gələrək dilləndi: - Şair düz deyir, sında igid bir döyüşçü kimi tanınan Vaqifi yaxalaya bildi. O, 21 oktyabr 2020-ci il tarixdə Füzuli rayonunun azad edilməsi uğrunda gedən döyüşlər zamanı ağır yaralanan bir zabiti atəş yağmuru altından çıxararkən düşmən gülləsinə tuş gələrək şəhidlərin sırasına qoşuldu...

Vaqifin nəşi üç gün neytral ərazidə qalandan sonra, düşməni geri çəkilməyə məcbur edən əsgərlərimiz şəhidin meyitini öldürüldüyü yerdən çıxarmağa müvəffəq oldular. Ölüm xəbəri 25 oktyabrda ailəsinə də gəlib çatan şəhid, oktyabrın 26-da Beyləqan rayon məzarlığında dəfn edildi.

Qəhrəman eloğlumuz İsmayılzadə Vaqif Vüqar oğlu Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

**İş yoldaşı Elnur QƏNBƏRLİ:** Vaqiflə həm iş yoldaşı, həm də yaxın dost idim. O, çox vətənpərvər bir hərbçi kimi hər kəsin hörmətin-rəğbətin qazanmışdı. Bizim münasibətimiz iş yoldaşı olaraq başladı və möhkəm-sarsılmaz dostluğa-qardaşlığa çevrildi. Vaqiflə ilk gündən verilən tapşırıqları bir yerdə həyata keçirirdik. Oktyabrın iyirmisi axşamı o, mənimlə söhbət edəndə dedi ki, döyüşün lap mərkəzində olmaq istəyirəm. Mən ona iki azyaşlı uşağının olduğunu xatırladanda: "Vətənin hamıdan öndədir, vuruşub almalıyıq torpaqlarımızı", - dedi!

Oktyabrın 21-də səhər tezdən Xocavənd ərazisinə getmək zərurəti yaranan-da üç nəfər oraya təxliyə olundular, onlardan biri də Vaqif idi. Bir müddət sonra xəbər gəldi ki, Vaqifgil vurulub. Vaqifə zəng çatırdı, amma telfonu açan yox idi. Onunla bir yerdə olan Atakişiyev Toğrula nədənsə zəng çatmırdı.

***Vətən mənə oğul desə, nə dərdim,***
***Mamır olub qayasında bitərdim...***

Artıq fikrində qət eləmişdi ki, ordu sıralarına təzədən qatılmalıdır. 2017-ci ilin noyabr ayında Azərbaycanın Müdafiə Nazirliyinin Hərbi Polis İdarəsində işə başlayanda, Tanrıya dönə-dönə şükranlıq etdi. Bu sahədə görməli olduğu işlərə tez alışdı, əsgəri xidmət illərində əldə etdiyi təcrübə hər addımda köməyinə gəldi. Artıq hiss olunurdu ki, gündən-günə həyasızlaşan, Şuşada sərxoş olub "Yallı" havasına oynayanda ağzınaağlına gələni deyib millətimizi aşağılayan düşmən ölkənin bədnam rəhbərinə, erməni silahlı qüvvələrinə kəskin cavab verməyin vaxtı-vədəsi çatmaqdadır. Bunu təkcə Vaqif yox, zabit və əsgərlərimiz, milyonlarla Azərbaycan vətəndaşı da hiss edir və Milli Ordumuza inamlarını vaxtaşırı olaraq dilə gətirirdilər. Bir dəfə hərbi polis yoldaşlarından biri onun üzünə baxıb dedi:

-Vaqif, sən inanırsanmı bu dəfə müharibə başlasa, harsın balalarına elə bir "toy" tutulacaq ki, cəhənnəmə vasil olanda da onu unutmayacaqlar?

- Dost, buna təkcə biz yox, xalqımız ürəkdən inanır. Və ermənilər güman edirlər ki, doxsanıncı illərin əvvəllərində qazandıqları üstünlüklərə arxalanıb, yenidən bizi küncə sıxışdıracaqlar. Ancaq o yaramazlar anlamırlar ki, indi nə zaman o zamandı, nə də ordumuz həmin ordu! Bu gün fəxarət hissiylə hamımız deyirik ki, xalqımızla dövlətimiz yanyanadır, Milli Ordumuzun əsgər və zabitləri Ali Baş Komandanımızın bir əmri ilə düşmənin külünü göyə sovurmaq hamı bu gün bir nəfər kimi Milli Ordumuzun gücünə-qüdrətinə güvənir!

Vaqif onun dediklərini başının işarəsi ilə təsdiqləyib, əlavə etdi:

-Bilirsən, dostum, ulu dədələrimiz demişkən, "qisas qiyamətə qalsa, hamımız gələcək nəsillərin qınaqlarına tuş gələrik!" İnşallah, torpaqlarımızın azad ediləcəyi günün də şahidi olacağıq, təki o məqam tez çatsın...

Vaqifin arzuladığı məqam ötən il sentyabr ayının 27-də gəlişi ilə milyonlarla ölkə vətəndaşının, illah da əli silah tutmağa qadir olan vətənpərvər oğullarımızın milli hisslərini yenidən coşdurdu. Düşmənin növbəti təxribatlarının qarşısını bir yolluq almaq üçün minlərlə qeyrətli Vətən övladı çağırış məntəqələrinə yollanıb, cəbhəyə getmək istəklərini bildirdilər...

İkinci Qarabağ Savaşı başlayan kimi Vaqif də müsəlləh əsgər kimi cəbhənin müxtəlif istiqamətlərində yaralanan döyüşçüləri tibb məntəqəsinə çatdırılmasında və şəhid olan ərənlərimizin nəşini döyüş meydanından çıxarmaq üçün verilən tapşırıqlara canı-dildən əməl edirdi. Bununla belə sonrakı günlərdə üç dəfə ön cəbhədə olmaq istəyi ilə tabeliyində olduğu səlahiyyətli orqan rəhbərliyinə ərizə ilə müraciət etmişdi. Son nəticədə arzusuna çataraq, ən qızğın döyüşlərin getdiyi ərazilərdə düşmənin müqavimətini qıran əsgərlərimizlə bərabər vuruşmağa başladı. Dəfələrlə ölümlə üz-üzə gəlsə də, birco addım da kənara çəkilməyi qüruruna sığışdırmadı. Atalar demişkən, gözlə-qaş arasında "yuva quran" ölüm mələyi axır ki, əsgərlər ara-

ümid edirdik ki, sağdılar, yəqin yaralı olduqları üçün telfonu açа bilmirlər...

Bir neçə gündən sonra, daha doğrusu oktyabrın 25-də öyrəndik ki, Vaqif şəhid olub. Belə bir vətənpərvər insanın yoxluğun qəbul etmək çox çətindir. Vaqif canlara dəyən oğul, etibarlı dost idi, onu heç vaxt unutmayacağam!..

Bu fani dünyada hərənin özünəməxsus həyat yolu, taleyi var. Dünyaya göz açan insan gec-tez həyatı tərk etməli, torpağın altında əbədi olaraq uyumalıdır. Bu bir qəzavü-qədər, Tanrı hökmüdür. Xoşbəxt o kəsdir ki, ölməzdən əvvəl mənsub olduğu xalqın ürəyində özünə yer edir, zaman-zaman ehtiram hissiylə xatırlanıb, gələcək nəsillər üçün qəhrəmanlıq simvoluna çevrilir. Məhz bu baxımdan Vətənin dar günündə candan keçən şəhidlərimiz ölməzdən qabaq bu məqama çatırlar. İkinci Qarabağ Müharibəsi başlayanda valideynlərinin ata yurdu Cəbrayılın düşməndən azad edilməsinə ürəkdən sevinən şəhid İsmayılzadə Vaqif Vüqar oğluna o ulu diyara qayıtmaq qismət olmasa da, bundan sonrakı vaxtlarda onun işıqlı xatirəsi həmişə qürur hissiylə yad ediləcək. Vətənə zəfər bəxş edənlərin sırasında onun da adı əzizlənəcəkdir. Ağır bir elin şəhid balası kimi ürəklərdə yeri olan Vaqifin Vətənə, Allaha əmanət qoyub getdiyi bir cüt oğul balası da şəhid atalarının hünəri ilə ilgili həmişə qürur hissi yaşayacaqlar!..

*18.01.2021*

*İsmayıl İMANZADƏ,*
*Tariyel ABBASLI*